

# Əfv və amnistiya minlərlə ailəyə sevinc gətirib

**Ümummilli Lider Heydər Əliyevin möhkəm təməllər üzərində qurduğu humanizm siyasəti Prezident İlham Əliyev tərəfindən bütün sahələrdə ardıcıl və uğurla davam etdirilir. Dövlətimizin başçısı əfvetmə institutuna xüsusi diqqət ayıraraq, onun çevik və effektiv fəaliyyət mexanizmini təmin edib.**

---

Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə qəbul olunan əfv və amnistiya qərarları on minlərlə ailəyə sevinc gətirib. Ölkə rəhbərinin imzaladığı əfv sərəncamları insan hüquqlarının qorunması və demokratikləşmənin dərinləşməsi istiqamətində qəbul edilmiş strateji siyasi xəttin davamlılığını göstərir. Prezident İlham Əliyevin təşəbbüsü və birbaşa rəhbərliyi ilə ölkəmizdə genişmiqyaslı islahatlar, xüsusilə, dövlət idarəçiliyi sahəsində daha sistemli və səmərəli idarəetmə mexanizminin yaradılmasına yönələn struktur dəyişiklikləri mühüm yeniliklərə səbəb olub.

**(davamı 11-ci səhifədə)**



# Əfv və amnistiya minlərlə ailəyə sevinc gətirib



(əvvəli 1-ci səhifədə)

Azərbaycanın sürətli inkişafı, rəşadətli ordumuzun 44 gün ərzində Ermənistanın 30 illik işğalına son qoyması və Qarabağda genişmiqyaslı yenidənqurma və bərpa-quruculuq işlərinin aparılması ölkəmizin beynəlxalq aləmdəki mövqelərini gücləndirib. Prezident İlham Əliyevin rəhbərliyi dövründə insan hüquq və azadlıqlarının qorunması, vətəndaşların layiqli həyat səviyyəsi ilə təmini dövlət siyasətinin əsas istiqamətlərindən biri olub. Ölkədə cinayət törədib cəzalandırılmış şəxslərin əfv olunması və bağışlanması artıq geniş yayılmış və köklü bir dövlət siyasətinə çevrilib. Bu proses humanizm prinsiplərinə əsaslanır, cəmiyyətin mənəvi-əxlaqi dəyərlərinə sadiqliyini nümayiş etdirir. Əfv və bağışlanma aktları insan hüquq və azadlıqlarına verilən yüksək dəyəri təsdiqləyib, eyni zamanda dövlətin və cəmiyyətin ədalət, mərhəmət və şəfqət prinsiplərinə sadiqliyini göstərir. Bu cür humanist addımlar insanlara həyatda yeni bir səhifə açmaq, keçmiş səhvlərindən nəticə çıxarıb düzgün yola yönəlmək imkanı yaradır. Əfv olunan şəxslər cəmiyyətə inteqrasiya olunmaq, ailələrinə qovuşmaq və faydalı vətəndaş olmaq fürsəti qazanırlar. Bu da öz növbəsində, dövlətə və onun ədalət sisteminə olan inamı möhkəmləndirir, hüquqi dövlət quruculuğuna müsbət təsir edir.

Ötən gün Prezident İlham Əliyevin imzaladığı "Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında" Sərəncam bir daha göstərir ki, Azərbaycan dövləti humanizm dəyərlərinə sadiq qalıb. Sərəncamla onlarla ailəyə sevinc bəxş olunub, yüzlərlə insanın həyatında yeni ümidlər doğub. Əfv olunanların şəxsiyyəti, törətdikləri cinayətlərin xarakteri, ictimai təhlükəlilik dərəcəsi, səhhətləri, ailə vəziyyətləri və cəza müddətindəki davranışları diqqətlə araşdırılıb. Onların islah olunmaq istiqamətində irəliləyiş göstərmələri nəzərə alınıb və nəticədə humanizm prinsipləri rəhbər tutulub. Əfv qərarının verilməsində həm məhkumların, həm də onların ailə üzvlərinin müraciətləri, eləcə də İnsan hüquqları üzrə müvəkkilin təqdimatları əsas götürülüb. Sərəncam Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 22-ci bəndinə uyğun şəkildə imzalanıb və hüquqi əsaslarla təmin olunub. Humanist addım və humanizm nümunəsi kimi qiymətləndirilən qərar bir neçə mühüm məqamı əks etdirir. İlk növbədə, bu, Prezident İlham Əliyevin vətəndaşlara münasibətindəki səmimiliyin və diqqətin sübutudur. Dövlət başçısının siyasi iradəsi nəticəsində atılan addım Azərbaycanın öz vətəndaşına daim humanist yanaşma sərgilədiyini nümayiş etdirir. Ümumilikdə isə əfv sərəncamının cəmiyyət tərəfindən rəğbətlə qarşılanması sözügedən istiqamətdə atılan addımların nə qədər yerində və dəyərli olduğunu təsdiqləyir. Digər tərəfdən, bu addım İnsan Hüquqları üzrə İşçi Qrupunun fəaliyyətinin səmərəli və nəticəyönümlü olduğunu ortaya qoyub. Bundan əlavə, dövri olaraq imzalanan əfv sərəncamları dövlətin vətəndaş cəmiyyətinin təşəbbüslərinə diqqətlə yanaşdığını sübut edib. Bu ölkədə vətəndaş cəmiyyəti institutlarının inkişafına və onların fəaliyyətinə verilən dəstəyin göstəricisidir. Nəhayət, Prezident İlham Əliyevin imzaladığı növbəti əfv sərəncamı insanlara azadlıq bəxş etməklə yanaşı, cəmiyyətin daxilində qarşılıqlı anlayış və ehtirama, həmçinin qanunun aliliyinə əsaslanan sağlam dövlət-vətəndaş münasibətlərinin formalaşmasına töhfə verir. Bu kimi qərarlar hüquqi dövlət quruculuğuna və insana bağlılığı bir daha təsdiqləyir.

Bu humanist qərar müstəqil və müasir Azərbaycan dövlətinin banisi, ulu öndər Heydər Əliyevin siyasi kursuna sədaqətin ən mükəmməl nümunəsidir. Ümummilli lider Heydər Əliyev hər zaman insan amilini ön planda saxlayıb, dövlət idarəçiliyində insan hüquq və azadlıqlarını prioritet hesab edib. 1995-ci il noyabrın 12-də keçirilmiş ümumxalq referendumu nəticəsində qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyası da məhz bu dəyərlərin hüquqi təməlini formalaşdırıb. Konstitusiyada yer alan müddəaların üçdəbir hissəsi birbaşa insan hüquq və azadlıqlarının təminatına həsr olunub. Beləliklə, Azərbaycan dövləti hüququn aliliyinə və insani yanaşmaya daim sadiq qalıb. Ulu öndər Heydər Əliyev 1995-2003-cü illər ərzində ümumilikdə 32 əfv sərəncamı imzalayıb. Sərəncamlara əsasən üç mindən çox məhkum azad olunub, minlərlə şəxsin cəzası ya yüngülləşdirilib, ya da tamamilə ləğv olunub. Bu fakt Heydər Əliyev siyasətinin humanizmə və insanlara qayğıya əsaslandığını təsdiqləyib.

Prezident İlham Əliyev də bu ənənəni uğurla davam etdirir. Son 22 il ərzində dövlət başçısı tərəfindən 30-dan çox əfv sərəncamı imzalanıb. Sərəncamlar Azərbaycan Respublikasının Konstitusiyasından irəli gələn səlahiyyətlərə əsaslanaraq qəbul olunub və hüquqi dövlətdə insan hüquqlarının təminatına verdiyi töhfələrlə fərqlənib. Müstəqillik dövrümüzdə imzalanmış ən geniş əhatəli əfv Sərəncamı 8 may 2023-cü ildə ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi münasibətilə qəbul olunub. Bu sərəncam ümumilikdə 801 məhkumu əhatə edib. Onlardan 463 nəfər tam şəkildə azadlıqdan məhrumetmə cəzasından azad olunub. 220 nəfərin cəzasının çəkilməmiş hissəsi yarıyadək azaldılıb. Həmçinin azadlıqdan məhrumetmə ilə bağlı olmayan cəzalara məhkum edilmiş 118 nəfər də əfv olunub. Bu şəxslər arasında cərimə, azadlığın məhdudlaşdırılması, islah işləri və digər cəzalardan azad edilmiş insanlar da yer alıb.

**Musa BAĞIRLI,**
**"Respublika".**